# Xalqın səsi, Vətən nəğməsi

***Duyumlu sözlərdən heç gəlməz xoşum,***
***Aydın həqiqətdir mənim fəlsəfəm.***
***Vətənə, millətə, qardaş ellərə***
***Dərin məhəbbətdir mənim fəlsəfəm.***

*Hər xalqın tale yükünü çiyinlərində daşıyan, onun sevinci ilə sevinən, dərdi ilə qovrulan şairləri olub. Azərbaycan ədəbiyyatının belə parlaq simalarından biri də Süleyman Rüstəmdir. Şair poeziyasını və yaradıcılığını "Mənim fəlsəfəm" şeirində belə ifadə etmişdir. Onun misraları xalqın ruhuna hopdu. O, sözün gücünü qəlbinin səsinə çevirib milyonlarla insanın duyğularına bələdçilik etdi. Vətən sevgisini, azadlıq həsrətini, insanın mənəvi böyüklüyünü saf, səmimi şəkildə ifadə edən bu poeziya zaman keçsə də, dəyərini itirmədi.*

Süleyman sözün gücünü dərk edən və onu xalqa xidmətə yönəldən nadir sənətkarlardan idi. Onun şeirləri dövrünün səsi oldu, xalqın duyğularını əks etdirdi, ümid və arzularını dilə gətirdi. Novxanı torpağında doğulub poeziyanın zirvəsinə yüksələn Süleyman Rüstəm ictimai xadim, dramaturq, tərcüməçi idi. O, öz dövrünün çətinliklərini yaşadı, siyasi və ədəbi meydanda mübarizə apardı, eyni zamanda incə lirizmi və dərin vətən sevgisini qələmi ilə gələcək nəsillərə ötürdü. Azərbaycan SSR dövlət himninin sözlərinin müəlliflərindən biri olan Süleyman Rüstəm uzun illər ədəbi və ictimai sahədə yüksək vəzifələrdə çalışmışdır.

12 mart 1906-cı ildə anadan olan şair 1925-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuş, 1929-cu ildə Moskva Dövlət Universitetinin ədəbiyyat və incəsənət fakültəsinə köçürülmüşdür. 1935-ci ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinə üzv seçilmiş, 1938-ci ildə isə Azərbaycan SSR Ali Sovetinin birinci çağırış deputatı olmuşdur. 1937-1938-ci illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, daha sonra "Ədəbiyyat qəzeti"nin baş redaktoru olmuşdur. Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin, "Azərbaycan", "Kirpi" jurnallarının və "Sovetskiy pisatel" nəşriyyatının redaksiya heyətlərinin üzvü idi. Xidmətlərinə görə üç dəfə "Lenin", iki dəfə "Qırmızı Əmək Bayrağı" ordenləri, Sovet Sülh Müdafiə Komitəsinin fəxri fərmanı və bir sıra medallarla təltif olunmuşdur. 1950-ci ildə "Stalin" mükafatı almış, 1960-cı ildə Azərbaycan SSR xalq şairi, 1976-cı ildə isə Sosialist Əməyi Qəhrəmanı fəxri adlarına, 1970 və 1986-cı illərdə isə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür. 1971-1989-cu illərdə Azərbaycan SSR Ali Sovetinin sədri vəzifəsində çalışmışdır.

Nəriman Nərimanov adına Bakı Sənaye Texnikumunda təhsil alan illərdə Süleyman Rüstəm ədəbi yaradıcılığına "Gənc işçi" qəzeti redaksiyasında ədəbiyyat şöbəsinin müdiri kimi başlayıb. Onun "Unudulmuş gənc" adlı ilk şeiri "Maarif və ədəbiyyat" jurnalında dərc edilib. Sonrakı illərdə şeirləri ilə mütəmadi olaraq dövri mətbuatda çıxış edib. XX əsrin 20-ci illərində şairin yaradıcılığı yeni dövrün əks-sədası kimi almanaxlara daxil olub. İlk kitabı "Ələmdən nəşəyə" onun poetik yaradıcılığının ana xəttini təşkil edir. Vətənpərvər ruhlu şairin "Ana və poçtalyon", "Ana ürəyi", "Gün o gün olsun ki", "Durnalar" kimi şeirləri müharibə illərində yazılıb və bu gün də öz aktuallığını qoruyur. Bu şeirlər müharibənin fəsadlarını, xalqın müqavimətini və vətənə olan sevgini əks etdirir.

Süleyman Rüstəm Cənubi Azərbaycan mövzusuna da müraciət edib. O, Cənubi Azərbaycanda olub, orada yaşayan soydaşların müşkül vəziyyətini öz gözləri ilə görüb və bu haqda şeirlər yazıb. "Təbrizim", "Könlümə Təbriz düşdü", "Yenə Araz qırağında", "Yaralarım" kimi şeirlərində Cənubda yaşayan azərbaycanlıların həyat tərzi və həsrəti təsvir olunub. Süleyman Rüstəmin yaradıcılığı sovet dövrü ilə sıx bağlı idi. O, bu dövrdə sosialist realizmi üslubunda əsərlər yazıb-yaratmışdır. Şair Azərbaycan təbiətini, xüsusən Xəzər dənizini poetik dillə tərənnüm edib. "Xəzərdə", "Xəzər nəyə bənzəyir", "Xəzərdə gecə", "Xəzərin səhəri" kimi şeirlər məhz bu qəbildəndir.

Süleyman Rüstəmin əsərləri çoxşaxəli olub, vətənpərvərlik, həsrət, təbiət sevgisi və dövrü tərənnüm etmək kimi mövzularla zəngindir. O, yaradıcılığı ilə Azərbaycan şeirinin inkişafına təkan verib. Görkəmli şairin poeziyasının əsas keyfiyyətləri onun sənətə, poeziyanın əbədi dəyərlərinə olan sədaqətində və mənəvi meyarlarının dəyişməzliyində ifadə olunur. Onun

şeirləri bədii-estetik prinsiplərə uyğun şəkildə zamanın və ideologiyanın təsirlərindən asılı olmayaraq, insani dəyərləri, vətən sevgisini, ədaləti və mənəvi saflığı tərənnüm edir. Şairin yaradıcılığı özündə həm klassik poeziyanın ənənələrini, həm də yeni dövrün realist təsvirlərini birləşdirir. O, poeziyanın missiyasını gözəlliyi ifadə etməklə yanaşı, həm də insanları mənəvi cəhətdən zənginləşdirməkdə, cəmiyyəti saflaşdırmaqda görürdü. Buna görə də onun şeirlərində dərin lirizm, humanizm və səmimiyyət hiss olunur. Süleyman Rüstəm şeirlərində sənətin əbədiliyindən, onun insan ruhuna təsirindən dönə-dönə bəhs etmişdir. Onun poeziyası göstərir ki, həqiqi sənət zamana və məkan dəyişikliklərinə baxmayaraq, öz aktuallığını qoruyub saxlayır və oxucuya mənəvi güc verir.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**